**Moldova Respublikasının Kişinyov şəhərində "İstifadəçilərin rahatlığına yönəldilmiş statistik məlumatların yayılması və PC-Axis proqramından istifadə edilməsi" mövzusunda təlim kursu keçirilmişdir**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsi müdirinin müavini Çimnaz Əliyeva, Məlumatların yayılması şöbəsinin sektor müdiri Azər Əhmədov və Baş Hesablama Mərkəzinin Veb texnologiyalarının tətbiqi şöbəsi müdirinin müavini Elgün Xəlilzadə 2013-cü ilin 23-25 sentyabr tarixlərində Avropa Azad Ticarət Assosiasiyasının təşkilatçılığı ilə Moldova Respublikasının Kişinyov şəhərində "İstifadəçilərin rahatlığına yönəldilmiş statistik məlumatların yayılması və PC-Axis proqramından istifadə edilməsi" mövzusunda keçirilmiş təlim kursunda iştirak etmişlər.

Təlim kursunun təşkilində texniki dəstək: məruzəçilərin təmin edilməsi, kursun təşkili və digər məsələlərlə bağlı təchizat Norveç və Danimarka Mərkəzi Statistika İdarələrinin əməkdaşları tərəfindən göstərilmişdir.

Tədbirin keçirilməsində əsas məqsəd PC-Axis proqramının təqdimatı, kriteriyaları, son nailiyyətlərin öyrənilməsi, müzakirəsi və məlumat istifadəçilərinin rahatlığının təmin edilməsi üçün müxtəlif vizual alətlər və geniş istifadə olunan metodlar üzərinə diqqəti cəlb etmək idi.

Təlimdə Azərbaycan da daxil olmaqla Albaniya, Belarus, Bosniya, Xorvatiya, Serbiya, Moldova, Gürcüstan, Ukrayna, Türkiyə və Ermənistanın milli statistika qurumlarının nümayəndələri iştirak etmişlər.

Təlimdə milli statistika orqanlarının məlumatların yayılması sahəsində siyasətə və statistik məlumatların buraxılışı təqviminə malik olmasının vacibliyi qeyd olunmaqla yanaşı bildirilmişdir ki, dəvət olunmuş 11 ölkədən yalnız Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində məlumatların yayılması sahəsində siyasəti vardır. Təşkilatçıların təlim kursu üçün hazırlanmış təqdimatlarında Dövlət Statistika Komitəsinin məlumatların yayılması sahəsində siyasətindən bəzi sxematik diaqramlardan istifadə edilmişdir.